# KİMYA SƏNAYESİNİN İNKİŞAFINDA XÜSUSİ XİDMƏTLƏRİ OLMUŞ İNSANLAR — ONLARI TANIYAQ VƏ TANIDAQ

⇨ Əvvəli ötən sayda



### Zəmin Hüseynov

Azərbaycan Neft və Kimya İnstitutunu bitirən Zəmin Hüseynov əmək fəaliyyətinə Sintetik Kauçuk (SK) zavodunda başlamış, sonra Superfosfat zavodunda direktor, "Sumqayıtkimyasənayesi" İB-də baş direktorun birinci müavini vəzifələrində işləmişdir. Moskva Xalq Təsərrüfatı Akademiyasını bitirdikdən sonra Zəmin Hüseynov 1980-ci ildə SK zavoduna direktor təyin olunmuş, 14 il bu vəzifədə çalışmışdır. Zavodun texniki və iqtisadi inkişafında böyük xidmətləri olmuş Zəmin Hüseynov Respublika Dövlət Mükafatı laureatı adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

### Lazar Avlastimov

Milliyyətcə yunandır. 1981-1997-ci illərdə Sintetik kauçuk zavodunda Baş mühəndis vəzifəsində çalışmışdır. Hazırda Rusiyanın kimya zavodlarının birində direktor vəzifəsində çalışır.

### Vəkil İsmayılov

Sumqayıt Kimya-Texnologiya Texnikumunda və Azərbaycan Neft Kimya İnstitutunun Sumqayıt filialında təhsil alan, sonralar isə Leninqrad Təkmilləşdirmə İnstitutunda oxuyaraq texniki biliyini bir qədər də artıran Vəkil İsmayılov Sintetik kauçuk zavodunda fəhləlikdən direktor müavini vəzifəsinə qədər şərəfli bir yol keçmiş, "Azərikimya" dövlət şirkətində təchizat və satış şöbəsinin rəisi vəzifəsində işləmişdir. Əməyi "Qırmızı Əmək Bayrağı" ordeni və döş nişanları ilə qiymətləndirilmişdir.

### İslam Məmmədov

Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra 1959-cu ildə təyinatla SK zavoduna göndərilir. Fəaliyyəti boyu müxtəlif məsul vəzifələrdə çalışan İslam Məmmədov dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 52 elmi işin, 30 ixtiranın, 200-dən çox səmərələşdirici təklifin müəllifi olan İ.Məmmədova "Azərbaycanın Əməkdar səmərələşdiricisi" fəxri adı verilmişdir.

### Nurəddin Babayev

M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu mühəndis-texnoloq ixtisası üzrə bitirib. 1971-ci ildə - 36 yaşında ikən o dövr üçün çox dəyərli və nüfuzlu sayılan "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunur. Sonra Üzvi sintez zavodunun direktoru vəzifəsinə irəli çəkilir. N.Babayevin rəhbərliyinin bütün dövrü ərzində Üzvi sintez həm respublikamızda, həm də keçmiş İttifaq miqyasında ən qabaqcıl kimya müəssisələrindən biri olmuş özü isə müxtəlif illərdə "Fəxri nişan" (1976), "Xalqlar dostluğu" (1981), "Lenin" (1986) ordeni və "Fədakar əməyə görə" medalı ilə təltif olunmuşdur. 1979-cu ildə isə istedadlı və yaradıcı bir mühəndis olaraq ona "Azərbaycanın Əməkdar səmərələşdiricisi" fəxri adı verilmişdir. 25-dən çox elmi əsərin müəllifi olan Nurəddin Babayev zəngin istehsalat təcrübəsinin, elmi istedadının, gərgin yaradıcılıq axtarışlarının nəticəsi olaraq 1990-cı ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almış, 1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının texnika doktoru seçilmişdi. 25-dən çox elmi əsərin müəllifidir.

### Əbülfəz Babayev

Azərbaycan Neft və Kimya İnstitutunu kimyaçı mühəndis-texnoloq ixtisası üzrə bitirərək təyinatla Sintez kauçuk zavoduna göndərilir. 30 ilə yaxın bu müəssisədə çalışmış, onun 19 ilini Baş mühəndis (SSRİ Neft və Kimya Sənayesi Nazirliyində ən gənc mühəndis idi) kimi fəaliyyət göstərmişdir. 2001-ci ildə Etilen-polietilen zavoduna direktor təyin olunmuşdur. 1980-ci ildə Moskva Kimya-Texnologiya İnstitutunun Elmi Şurasında dissertasiya müdafiə edərək texnika elmləri namizədi, 1991-ci ildə isə texnika elmləri doktoru alimlik dərəcəsi almışdır. 1994-cü ildə Beynəlxalq Mühəndislər Akademiyasının müxbir üzvü, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, iki il sonra isə Beynəlxalq Mühəndislər Akademiyasının həqiqi üzvü - akademiki seçilmişdir. Bir sıra xarici ölkələrdə nəşr olunmuş 200-dən artıq elmi əsərin, 100-dən çox müəlliflik şəhadətnaməsinin və patentin müəllifidir.

### Ucal Qasımzadə

1974-cü ildən 1992-ci ilədək Məişət Kimyası zavodunda direktor işləmişdir. 7-8 il dalbadal Keçici Qırmızı Bayrağa layiq görülən zavodun istehsal etdiyi yuyucu vasitələr keçmiş İttifaqın bütün respublikalarına, həmçinin Yuqoslaviya, Polşa, Vyetnam, Əfqanıstan və digər xarici ölkələrə göndərilirdi.

### Nərçə Ağayev

Azərbaycan Neft-Kimya İnstitutunu bitirib. Sintetik kauçuk zavodunda müxtəlif vəzifələrdə çalışıb. 1974-cü ildən 1990-cı ilədək - 16 il Superfosfat zavodunda direktor işləyib. 1990-cı ildə "Azərkəndkimya" İstehsalat Birliyinin sədri təyin olunur və altı il bu vəzifədə çalışıb. Sonrakı illərdə "Sintez" İstehsalat Servis və Kommersiya Assosiasiyasının baş direktoru, Məişət kimyası zavodunun direktoru, 1998-ci ildən isə "Azərikimya" Dövlət Şirkətində vitse-prezident vəzifəsini icra etmişdir. SSRİ-nin fəxri kimyaçısı, Respublikanın Əməkdar mühəndisi, Azərbaycanın Maarif əlaçısı fəxri adlarına layiq görülmüşdür, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur. Texnika elmləri namizədi Nərçə Ağayev 20 ixtiranın, 60-dan çox səmərələşdirici təklifin müəllifi olmuşdur.

### Zeynal Hüseynov

1965-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunun Mexanika fakültəsini bitirdikdən sonra Sumqayıt Kimya Kombinatının polietilen sexinə mexanik vəzifəsinə göndərilir. 1988-1994-cü illərdə "Polimir-120" zavodunda direktor işləmiş, sonra "Azərikimya" Dövlət Şirkətində İstehsalat şöbəsinin rəisi vəzifəsində çalışmış, 1996-cı ildən isə Superfosfat zavoduna direktor təyin olunmuşdur. İşlədiyi müddət ərzində "Kimya sənayesi əlaçısı" döş nişanına, "Əmək igidliyinə görə" medalına və "Şöhrət" ordeninə layiq görülmüşdür.

### Mustafa Həsənov

Azərbaycan Neft-Kimya İnstitutunda təhsil alıb. Əmək fəaliyyətinə Sintetik kauçuk zavodunda başlayıb. Etilen-polietilen zavodunun buraxılışında yaxından iştirak edib. Həmin zavodun baş mühəndisi, sonra isə direktoru vəzifələrində çalışıb. 1993-cü ildə EP - 300 istehsalatının bərpasına görə respublikanın Əməkdar mühəndisi fəxri adına layiq görülüb. Onlarla ixtiranın və səmərələşdirici təklifin müəllifi olan Mustafa Həsənov "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

### Təbrik Quliyev

1970-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirdikdən sonra təyinatla "Kimyasənayesi" İstehsalat Birliyinə göndərilən Təbrik Quliyev burada laborant, mühəndis, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1994-1998-ci illərdə Bakıdakı kimyəvi reaktorlar və lakboya istehsalı müəssisəsində direktor işləmiş, 1998-ci ildə Səthi aktiv maddələr zavoduna direktor təyin olunmuşdur. Kimya elmləri namizədi, Azərbaycan Respublikası Dövlət Mükafatı laureatıdır.

### Cümşüd Kərimov

ADU-nun kimya fakültəsini bitirdikdən sonra əmək fəaliyyətinə Sintetik kauçuk zavodunda aparatçı kimi başlayan Cümşüd Kərimov burada növbə, sex, istehsalat rəisi vəzifələrini icra etmişdir. Zavod Həmkarlar İttifaqı Komitəsinin sədri, Partiya Komitəsinin katibi, Respublika Kimyaçılarının Sahə Həmkarlar Komitəsinin sədri, Üzvi sintez və Super fosfat zavodlarında direktor müavini vəzifələrini icra etmiş, 1999-cu ildə Məişət kimyası zavoduna direktor təyin olunmuşdur.

### Tamara Rufullayeva

1970-1995-ci illərdə Sumqayıt Sintetik Yuyucu Məhsullar Zavodunda qablaşdırıcı vəzifəsində çalışmışdır. Dəfələrlə sosializm yarışının qalibi olmuş, beş çağırış Sumqayıt Şəhər Sovetinin deputatı seçilmişdir. Zəhməti "Əmək Rəşadəti" medalı, "Qırmızı Əmək Bayrağı" ordeni ilə qiymətləndirilmiş, "Əmək Veteranı" adına layiq görülmüşdür. T.Rufullayevanın adı Respublika Əmək Şöhrəti kitabında qeyd olunmuşdur.

### Eldar İsmayılov

1971-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Kimya Kombinatında (Üzvi sintez zavodu) aparatçı vəzifəsi ilə başlamışdır. 1972-1975-ci illərdə Kimya Kombinatında sex rəisinin müavini, M.Əzizbəyov adına Xlor Üzvi Məhsullar Zavodunun direktor müavini, "Azərikimyatəmir" Trestinin müdir müavini vəzifələrində çalışmışdır. Azərbaycan KP MK-da təlimatçı, 1988-1989-cu illərdə Azərbaycan KP Şəhər Komitəsinin I katibi, 1991-1992-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrini icra etmişdir. Bir müddət respublika Nazirlər Kabinetində məsul vəzifədə çalışdıqdan sonra yenidən kimya sənayesinə dəvət edilmiş, 1996-cı ildə Sintez kauçuk zavoduna, 1997-ci ildə isə Superfosfat zavoduna direktor təyin olunmuşdur. 1991-1995-ci illərdə Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.

### Ağaxan Ağayev

Əmək fəaliyyətinə 1963-cü ildə Superfosfat zavodunda aparatçı kimi başlayan Ağaxan Ağayevin çoxillik səmərəli fəaliyyəti yüksək qiymətləndirilmiş, o, "Qırmızı Əmək Bayrağı" və "Lenin" ordenləri, həmçinin "Oraq və çəkic" medalı ilə təltif olunmuşdur. O dövrün ən yüksək təltifi olan Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülən Ağaxan Ağayev Azərbaycan KP-nin XXX və Sov. İKP-nin XXVI qurultaylarının nümayəndəsi olmuşdur.

Bu şanlı kimyaçıların siyahısına Lenin ordenli, SSRi Ali Sovetinin deputatı Rəfiqə Hüseynovanı, "Şöhrət" və "Qırmızı Əmək Bayrağı" ordenli Nəzakət Rzayevanı, "Şöhrət" ordenli Əlihüseyn Abdulhüsenoğlunu, Lenin yubiley medalı ilə təltif olunmuş, üçüncü və ikinci dərəcəli "Şöhrət" ordenlərinə layiq görülmüş Sahib Hüseynovu, "Lenin" ordenli Firudin Məmmədovu, "Oktyabr inqilabı" ordenli Əli Bayramovu, respublikanın Əməkdar səmərələşdiricisi Vaqif Quliyevi, "Oktyabr inqilabı" ordenli Böyükağa Şükürovu, "Yubiley medalı", "Əlaçi-kimyaçı" döş nişanı və Əmək Veteranı medalına layiq görülmüş, növbədənkənar "Volqa" avtomobili ilə mükafatlandırılmış Qubad Dadaşovu, "Oktyabr inqilabı" ordenli Fərhad Zeynalovu, Dövlət Mükafatı laureatı Əlisəfa Səfərovu, "Tərəqqi" medallı Firudin Mustafayevi, kimya sənayesinin inkişafında özünəməxsus xidmətləri olan Rövşən Sərdarlını, Məmməd Hüseynovu, Firudin Abdullayevi, Samir Manafovu, Natiq Qulubəyovu, Famil Süleymanovu, İsa İsayevi, Mədət Mənsurovu, Əjdər Babayevi, Sara Qasımovanı, Adilə Ərəbxanovanı, Üzvi sintez zavodunda baş direktorun iqtisadiyyat üzrə müavini işləmiş Kardakova Nina Timofeyevnanı, Üzvi sintez İstehsalat Birliyində satış şöbəsinin rəisi vəzifəsində çalışmış Nazarova Qalina Sergeyevnanı, Kimya Sənayesi Birliyində iqtisadiyyat şöbəsinin rəisi işləmiş Hüseynova Aleksandra İvanovnanı və onlarla başqalarını əlavə edəndə gözlərimiz önündə kimya sənayesinin şanlı və şərəfli tarixi salnaməsi öz dolğunluğu ilə canlanır.

Sumqayıt bu gün də onun şöhrətinə şöhrət qatan, adını yüksəklərə qaldıran, kimya sənayesinin yükünü 70 ildən bəri çiyinlərində daşıyan bu qəhrəman övladları ilə fəxr edir. İnanırıq ki, bu insanların adı, xeyirxah əməlləri qədirbilən sumqayıtlıların yaddaşından heç vaxt silinməyəcəkdir.

**Rafiq Oday,**
*Respublikanın Əməkdar Jurnalisti*